

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*


**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 208 (24.345)

*8 noyabr 2023-cü il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev 8 Noyabr – Zəfər Günü münasibətilə paylaşım edib




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 8 Noyabr – Zəfər Günü münasibətilə rəsmi sosial şəbəkə hesablarında foto paylaşıb.

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər rayonunun Vəngli kəndində olublar

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev noyabrın 7-də Kəlbəcər rayonunun Vəngli kəndində olublar.

Qeyd edək ki, işğal dövründə ermənilər növbəti vandallıq aktı nümayiş etdirərək, azərbaycanlıların şəxsi avtomobillərinin nömrələrindən lövhə düzəltmişdilər.

Prezident İlham Əliyev lövhənin sökülməsi ilə bağlı tapşırıq verdi.

## Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşaya səfər ediblər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşaya gəliblər.

Dövlətimizin başçısı və birinci xanım Şuşa şəhərində 23 binadan ibarət yaşayış kompleksində aparılan tikinti işləri ilə tanış olublar.

Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva hazır mənzillərdə yaradılan şəraitlə tanış oldular.

Məlumat verildi ki, yaşayış kompleksində, ümumilikdə, 450 mənzil istifadəyə veriləcək. Burada 28 birotaqlı, 195 ikiotaqlı, 190 üçotaqlı, 30 dördotaqlı və 7 beşotaqlı mənzil olacaq. Mənzillərin əksəriyyəti keçmiş məcburi köçkünlərin istifadəsinə veriləcək.

Qeyd edildi ki, ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək.

***

Noyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində "Qızlar gimnaziyası" tarixi abidə binasında həyata keçiriləcək işlərlə tanış olublar.

Dövlətimizin başçısına və birinci xanıma tarixi abidə barədə məlumat verildi.

Bildirildi ki, Şuşada müstəqil qız məktəbi 1875-ci il oktyabrın 26-da Şuşa əhalisinin təşkil etdiyi "Xeyriyyə cəmiyyəti" tərəfindən təsis olunub. Dini etiqadından və mənşəyindən asılı olmayaraq, bütün qızlara burada təhsil almaq imkanı yaradılmışdı. Tədris planına rus dili, hesab, ana dilində oxuma, yazma, hüsnxət, rəsm, rəsmxət, ümumi coğrafiya, tarix, ölkəşünaslıq daxil idi. Eyni zamanda, məktəbdə milli mahnılar öyrədilir, təbiət, tarix və fizikadan dərs verilirdi. Məktəbdə təhsil ödənişli olsa da, kasıb ailələrin övladları təhsil haqqından azad idilər. Əlavə təhsil haqqı verənlərə fransız və alman dilləri də tədris edilir, musiqi öyrədilirdi. Qızların rus dilində təhsilinə diqqəti artırmaq və xərcin bir qismini xəzinədən ödəmək şərti ilə Şuşa qız məktəbi 1894-cü ildə Şuşa Marinski qız məktəbi adını aldı və dördsinifli məktəbə çevrildi. Məktəb 120 şagirdlə fəaliyyətə başladı. Artıq 1895-1896-cı tədris ilində burada 147 qız təhsil alırdı. Bu məktəbin təşkili azərbaycanlı qızların da rus dilində təhsilinə şərait yaratmışdı. Şuşa Marinski qız məktəbi qadınların təhsili sahəsində, azərbaycanlı qızların dünyəvi təhsil almasında mühüm rol oynayıb. 1894-cü ildə Şuşada iki şəxsi qız məktəbinin əsasında Müqəddəs Mariya qız məktəbi yaradılmış, bununla da azərbaycanlı qızların Avropa təhsilinə yolları açılmışdı.

Qeyd edildi ki, bina sovet dövründə internat məktəbi kimi də fəaliyyət göstərib. Gələcəkdə buranın dekorativ-tətbiqi sənət mərkəzi və mədəni sahələr üzrə inzibati bina kimi istifadə olunması planlaşdırılır.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşa şəhərində Qala divarına və ətraf əraziyə baxış keçiriblər.

Dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verildi.







***

Noyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən Şuşada Pənahəli xan küçəsində yerləşən bir sıra binalarda həyata keçiriləcək bərpa və yenidənqurma layihələri ilə tanış olublar.

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma görüləcək işlər barədə məlumat verdi.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşada "Yasəmən" otelinin açılışında iştirak ediblər.

Dövlətimizin başçısına və birinci xanıma oteldə yaradılan şərait barədə məlumat verildi.

İşğaldan azad edilən ərazilərdə Azərbaycan dövləti tərəfindən həyata keçirilən bərpa və quruculuq işlərinə Heydər Əliyev Fondu da öz töhfəsini verməkdədir. Qədim Qarabağ torpağında Fond tərəfindən dini, tarixi-mədəni abidələrin, məscidlərin bərpası üzrə layihələrin icrasına start verilib.

Bildirildi ki, XIX əsrin ortalarında Qarabağ memarlıq məktəbinə xas tərzdə inşa edilmiş, Şuşa şəhərinin Köçərli küçəsində yerləşən üç yaşayış binası işğal zamanı dağıdılaraq istifadəyə yararsız vəziyyətə salınıb. Heydər Əliyev Fondu ərazidə layihələndirmə işləri apararaq, 2022-ci ilin may ayından etibarən həmin yaşayış binalarının təmir-bərpa işlərinə başlayıb.

Fond tərəfindən bərpa edilən binalar hazırda otel kimi istifadəyə verilib. Autentik üslubda bərpa edilən "Yasəmən" otelinin eksteryer və interyeri buraya gələnləri orta əsr Şuşasına qaytarır. Otel "double", "twin" və "junior" otaqların olduğu iki korpusdan, restoran və bir neçə terrasdan ibarətdir. Otelin interyeri, otaqları xüsusi dizayn edilib. Buradakı hər bir element, əşya məhz bu dizayna uyğun seçilib. Bu da qonaqlarda nostalji hisslər yaradır.

Dövlətimizin başçısı və birinci xanım otelin həyətində yasəmən ağacı əkdilər.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşa şəhərində peşə məktəbinin və kollecin binalarına baxış keçiriblər.

Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına və birinci xanıma görüləcək işlər barədə məlumat verdi.

Prezident İlham Əliyev peşə məktəbinin və kollecin ərazisinə baxıb, tapşırıq və tövsiyələrini verib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşa şəhəri 1 nömrəli tam orta məktəbin açılışında iştirak ediblər.

Dövlətimizin başçısına və birinci xanıma məktəbdə yaradılan şərait barədə məlumat verildi.

Bildirildi ki, 960 şagird yerlik üçmərtəbəli bina beş blokdan ibarətdir. Burada hər biri 24 nəfərlik 40 sinif otağı, 2 fizika, 2 kimya, 2 biologiya, 2 texnologiya, 2 informatika otağı, STEAM mərkəzi, kitabxana, oxu zalı, gənclərin ibtidai hərbi hazırlığı, rəssamlıq və musiqi kabinetləri, yeməkxana, akt və idman zalları, tibb, müayinə və inzibati heyət üçün iş otaqları var. Məktəb üçün ayrılan ərazidə futbol meydançası və digər zəruri yardımçı binaların inşası yekunlaşıb.

Qeyd edək ki, ölkəmizin mədəniyyət paytaxtı Şuşa Azərbaycanın ictimai-siyasi həyatında özünəməxsus rol oynayıb. Azərbaycanın ictimai-siyasi fikir tarixində mühüm yer tutan bir sıra görkəmli şəxsiyyətlər, maarifçi ziyalılar məhz Şuşada doğulub boya-başa çatıblar. Şuşada 1 saylı tam orta məktəbin inşası da məhz bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Belə ki, məktəbin inşası bu qədim şəhərin təhsil mərkəzi şöhrətinin qaytarılması missiyasına xidmət edən növbəti addımdır.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşada Heydər Əliyev Fondu tərəfindən Mamayı məscidində aparılan bərpa işləri ilə tanış olublar.

Dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, bu məscid Şuşa şəhərinin mərkəzi hissəsində yerləşən Mamayı məhəlləsində XIX əsrin sonlarında Kərbəlayı Səfixan Qarabağı tərəfindən inşa edilib. Düzbucaqlı quruluşu olan ikimərtəbəli məscidin sütunlu interyeri var.

Məhəllə məscidləri kimi Mamayı məscidinin də damında azan vermək üçün taxtadan güldəstə quraşdırılıb. Burada da məscid, bulaq, kiçik meydan, hamam olub. Lakin işğal zamanı onlar da erməni vandalizminə məruz qalıb. Sovet hakimiyyəti illərində isə Mamayı məscidi poeziya evi kimi fəaliyyət göstərib.

Hazırda məsciddə "PAŞA Holding"in dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən bərpa işləri həyata keçirilir. Qeyd olundu ki, bərpa işləri Mamayı bulağını da əhatə edir.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Heydər Əliyev Fondu tərəfindən Çöl Qala məscidində və bulağında aparılan bərpa işləri barədə də məlumat verildi.

Bildirildi ki, Çöl Qala məscidi XIX əsrdə Şuşa şəhərində fəaliyyət göstərən 17 məsciddən biri olub. Məscid XIX əsrdə Kərbəlayı Səfixan Qarabağı tərəfindən tikdirilib. Məscid minarəsiz formada inşa edilib.

Məscidin taleyi Şuşa şəhəri 1992-ci ilin mayında Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildikdən sonra şəhərin digər tarixi abidələri kimi olub və bu dini-tarixi abidəmiz də dağıdılaraq talan edilib.

Çöl Qala məscidinin yaxınlığında məscidin üslubunda tikilən XIX əsrə aid Çöl Qala bulağı yerləşir. Şuşa şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən işğal ediləndən sonra bulaq da dağıdılıb, daş kitabələri də məhv edilib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşada İsa bulağında da olublar.

**AZƏRTAC**

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin payız sessiyasının Zəfər Gününə həsr olunmuş iclası keçirilib





Noyabrın 7-də altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2023-cü il payız sessiyasının Zəfər Gününə həsr olunmuş iclası keçirilib.

İclasın gündəliyinə aşağıdakı məsələlər verilib:

1. Zəfər Gününün üçüncü ildönümü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Bəyanatı
2. Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədrinin təsdiq edilməsi
3. Cari məsələlər

Əvvəlcə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov gündəlikdə duran birinci məsələnin müzakirəsi zamanı qeyd edib ki, Zəfərimizin üçüncü ildönümü Xankəndidə hərbi paradla qeyd olunacaq. Bu tarixi günü Azərbaycan xalqına bağışlayan möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyevə daim minnətdarıq. Qərara alındı ki, siyasi qurum olaraq Ali Məclis də bu məsələyə münasibət bildirsin.

Gündəlikdə duran birinci məsələ ilə bağlı Ali Məclisin deputatları – Aidə Cəlilzadə, Elman Cəfərli, Yeganə Məmmədova, Nüsrət Həsənov, Vüqar Abbasov və İsa Məmmədov çıxış ediblər.

Çıxışlarda deputatlar Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi və rəşadətli Ordumuzun şücaəti ilə 44 günlük Vətən müharibəsində əldə etdiyimiz Tarixi Zəfərimizin üçüncü ildönümü ilə bağlı təbriklərini çatdırıblar. Millət vəkilləri Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin şanlı ordumuz və onun ətrafında "dəmir yumruq" kimi birləşən xalqımız ilə birlikdə Ümummilli Liderimiz Heydər Əliyevin vəsiyyətini – işğal altında olan torpaqlarımızın azad olunması missiyasını yerinə yetirdiyini, ərazi bütövlüyümüzün, tarixi ədalətin bərpasını təmin etdiyini diqqətə çatdırıblar. Tarixə qızıl hərflərlə yazılan Zəfər Gününün ölkə tarixinin ən şərəfli və parlaq səhifələrindən biri olduğu vurğulanıb.

Bildirilib ki, dövlət başçımızın həyata keçirdiyi uğurlu siyasət nəticəsində Azərbaycan hərtərəfli inkişaf edib, onun güclü siyasi, iqtisadi və hərbi potensialı yaradılıb, doğma torpaqlarımızı işğaldan azad etməyə hər an hazır olan gənc nəsil yetişdirilib. Hərbi potensialın gücləndirilməsi, müasir ordu quruculuğu istiqamətində görülən işlər, ölkə başçısının ətrafında sıx birləşən gənclik və onların döyüş əzmi, rəşadəti, peşəkarlığı sayəsində işğal altında olan şəhər və kəndlərimiz, Qarabağın tacı olan Şuşanın mənfur düşməndən təmizlənməsi xalqımızın gücünü, həmrəyliyini bütün dünyaya bir daha göstərdi. Düşünülmüş daxili və xarici siyasət, Prezident-Xalq birliyi şanlı qələbənin əldə olunmasında mühüm rol oynadı.

Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində, eyni zamanda informasiya savaşında əldə etdiyimiz tarixi Zəfər təkcə 30 ilə yaxın işğal altında olan torpaqlarımızın əsarətdən qurtarılması, ərazi bütövlüyümüzün bərpa olunması ilə nəticələnmədi, eyni zamanda müharibə qaydalarına əməl etməklə ölkəmiz Azərbaycan xalqının ləyaqətli simasını bütün dünyaya bir daha nümayiş etdirdi. Əldə etdiyimiz şanlı qələbənin təməlində ölkə başçısının siyasi səriştəsi, rəhbərliyi dövründə həyata keçirdiyi uğurlu islahatlar dayanır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ümummilli Liderimiz Heydər Əliyevin həyata keçirməyə başladığı quruculuq və inkişaf strategiyasını davam və inkişaf etdirərək Azərbaycanı qüdrətli dövlətə çevirdi. 2023-cü il sentyabrın 19-20-də Qarabağda həyata keçirilən lokal antiterror tədbirləri isə erməni silahlı dəstələrinin tərk-silah edilməsi və dövlətimizin suverenliyinin onun bütün ərazisində bərpa olunması ilə nəticələndi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov gündəlikdə duran birinci məsələ ilə bağlı bildirib ki, Zəfər Gününün üçüncü ildönümü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Bəyanatının layihəsi hazırlanıb.

Ali Məclisin deputatı Vüsalə Əliyeva Zəfər Gününün ildönümü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Bəyanatını səsləndirib.

Bəyanat səsə qoyularaq qəbul edilib. **(Bəyanatın mətni qəzetin bugünkü nömrəsində dərc olunur)**

Gündəlikdə duran ikinci məsələnin müzakirəsi zamanı Anar İbrahimov qeyd edib ki, cari ilin əvvəlindən Naxçıvan Muxtar Respublikasında struktur islahatlarına start verilib. Struktur islahatları müxtəlif sahələri əhatə edib və bu prosesin məqsədi müxtəlif sahələrdə idarəetmənin optimallaşdırılması, mərkəzi strukturlara uyğunlaşdırmaq, səmərəliliyin artırılması və pərakəndəliyin aradan qaldırılması olub. Artıq müxtəlif sektorlarda bu proseslər başlanılıb və davam etdirilməkdədir. Əminik ki, bu prosesin sonunda Naxçıvan Muxtar Respublikasında çevik, səmərəli və şəffaf idarətmə sistemi qurulacaqdır. Bu da, təbii ki, möhtərəm Prezidentimizin, bütövlükdə, islahat konsepsiyasının tərkib hissəsidir. Konkret qida təhlükəsizliyi sahəsinə gəldikdə, bilirsiniz ki, bu sahə muxtar respublikada ölkədən fərqli olaraq vahid mərkəzi icra hakimiyyəti strukturunda deyil, bir neçə strukturlarda həyata keçirilirdi. Bu da strateji sahə olan qida təhlükəsizliyi sahəsində vahid dövlət siyasətinin hazırlanıb həyata keçirilməsində bir sıra problemlər yaradırdı. Bu səbəbdən Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyi yaradılıb. Ali Məclis sədrinin 3 noyabr 2023-cü il tarixli müvafiq fərmanı ilə agentliyin fəaliyyətinin təmin edilməsi məqsədilə onun əsasnaməsi və strukturu təsdiq edilib, hökumətə isə agentliyin fəaliyyətinin təmin edilməsi ilə bağlı müvafiq tapşırıqlar verilib. Hazırkı mərhələdə agentliyin idarə edilməsi prosesinin təmin olunması gündəlikdədir. Agentlik mərkəzi icra hakimiyyəti orqanı statusunda olan təsisatdır, yəni onun rəhbəri muxtar respublika hökumətinin üzvü statusundadır.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 36-cı maddəsinin II hissəsinə əsasən Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tərkibini Naxçıvan Muxtar Respublikası Baş nazirinin təklifi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi təsdiq edir. Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 32-ci maddəsinin I hissəsinin 4-cü bəndi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Naxçıvan Muxtar Respublikasının Baş nazirinin təklifinə əsasən Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə üzvlüyə namizədləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinə təqdim edir. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin tərkibinin təsdiqi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin həll etdiyi məsələlərdən biri olub. Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 5-ci bəndi ilə müəyyən edilib. Eyni zamanda "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi"nin 54-cü maddəsində Nazirlər Kabinetinin tərkibinin təsdiqi proseduru müəyyən olunub. Naxçıvan Muxtar Respublikası Baş nazirinin 2023-cü il 6 noyabr tarixli təqdimatı Ali Məclisə daxil olub.

Təqdimat oxunduqdan sonra qanunvericiliyə müvafiq olaraq təklif müzakirəyə çıxarılıb, namizəd Nəsirov Səfəralı Üzeyir oğlu haqqında məlumat verilib.

Nəsirov Səfəralı Üzeyir oğlunun Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri vəzifəsinə təsdiq edilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərar layihəsi səsə qoyulub, Nəsirov Səfəralı Üzeyir oğlu Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri vəzifəsinə təsdiq edilib.

Səfəralı Nəsirov qarşıdan gələn Zəfər Günü və digər bayramlar münasibətilə təbriklərini çatdırıb, Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyət istiqamətlərindən, bu sahədə ölkə və muxtar respublika üzrə görülən işlərdən danışıb. Göstərilən etimada görə minnətdarlığını bildirib. Qeyd edib ki, Naxçıvanda qida təhlükəsizliyi sahəsində fəaliyyətin möhkəm təməl üzərində qurulmasına, bununla da qida təhlükəsizliyi haqqında qanunvericilik aktları ilə müəyyən edilmiş dövlət nəzarətinin təşkilinə və həyata keçirilməsinə nail olunacaq.

Cari məsələlərin müzakirəsi zamanı 17 saylı Çalxanqala Seçki Dairəsindən deputat Ehtimad Məmmədov bildirib ki, təmsil etdiyi seçki dairəsi Xok, Yeni Kərki, Xıncab, Təzəkənd və Çalxanqala kəndlərini əhatə edir. Kəngərli rayonunun Böyükdüz, Yeni Kərki və Xok kəndlərinin suvarma suyuna olan ehtiyacı tamamilə ödənilib. Son dövrlərdə insanların problemlərinə müvafiq dövlət qurumlarının həssas yanaşması, bu kəndlərdə suya olan tələbatın ödənilməsində mühüm rol oynayıb. Digər kəndlərdə qismən problemlər mövcuddur. Rayonun Təzəkənd, Xıncab və Çalxanqala kəndlərində su çatışmazlığı mövcuddur. Təzəkənd və Xıncab kəndlərinin 449 hektar pay torpağı, 64 hektar həyətyanı sahəsi, Çalxanqala kəndinin isə 501 hektar pay torpağının bir hissəsi, Böyükdüz kəndinin 941 hektar pay torpağı, ümumilikdə, 1400 hektara yaxın əkinəyararlı torpaq Uzunoba gölündən gələn su ilə suvarılır. Göldə suyun azlığı, quraqlıq və digər səbəblərdən suyun vaxtlı-vaxtında verilməsi gecikdirilir. Bu isə əkinçiliyin inkişafına mənfi təsir göstərir. Ehtimad Məmmədov Böyükdüz kəndi yaxınlığında pay torpağı olmayan 2200 hektar əraziyə çəkilmiş su xəttindən bu əraziyə su verilməsinin mümkünlüyünün araşdırılmasını, həmçinin içməli suyun keyfiyyətinin aid qurumlar tərəfindən yoxlanılmasını və keyfiyyətin standartlara uyğun olub-olmaması ilə bağlı əhalinin məlumatlandırılmasını təklif edib.

24 saylı Naxçıvan Şəhər Seçki Dairəsindən deputat Vüqar Abbasov muxtar respublikada sahibkarların qida təhlükəsizliyi ilə bağlı maarifləndirilməsi istiqamətində görüşlərin təşkil olunmasını, sahibkarlığın inkişafı sahəsində yeni modelin tətbiqini, Ali Məclis üzvlərinin hökumətə birbaşa çıxışının təmin olunmasını və Ali Məclis deputatlarının təyyarə biletləri ilə təminatına köməklik göstərilməsini təklif edib.

26 saylı Naxçıvan Şəhər Seçki Dairəsindən deputat Elman Cəfərli Ali Məclis deputatlarının muxtar respublikadan kənarda tədbirlərdə iştirakı ilə əlaqədar və ya məzuniyyət vaxtlarında təyyarə biletləri tapa bilmədiklərini bildirib və bu məsələnin nəzarətə götürülməsini xahiş edib. Həmçinin dövlət tədbirləri zamanı yollarda hərəkət məhdudiyyəti ilə bağlı, eləcə də təbii qaz və elektrik enerjisi təminatı sahəsində yaranacaq fasilələr barədə əhalinin aid qurumlar tərəfindən əvvəlcədən məlumatlandırılmasını təklif edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Ülvi Hüseynli hava limanında dövlət bronlarından istifadə ilə bağlı məlumat verib.

11 saylı Həmzəli Seçki Dairəsindən deputat Yeganə Məmmədova bildirib ki, şəhid adlarının əbədiləşdirilməsi ilə bağlı xeyli işlər görülür. Lakin vaxtilə Gümüşlü kənd tam orta məktəbinə Birinci Qarabağ müharibəsi şəhidi Abbas Cavadovun adı verilib. 2019-cu ildən bu ad götürülüb. Gələcəkdə şəhidin adı yenidən həmin məktəbə veriləcəkmi? Yeganə Məmmədova həmçinin su təminatında problemlərin olduğunu və hər kənddə subartezian quyusunun qazılması ilə kəndlərin su təminatı məsələsinin həll oluna biləcəyini qeyd edib.

22 saylı Şıxmahmud Seçki Dairəsindən deputat Turan Məmmədli şəhidlərlə bağlı tədbirlərin mediada dolğun əks olunması istiqamətində birgə iş görülməsini təklif edib.

38 saylı Yaycı Seçki Dairəsindən deputat Fərəc Fərəcov qurum rəhbərlərinin deputatlarla birlikdə yerlərdə sakinlərlə görüş keçirmələrini təklif edib.

3 saylı Maxta Seçki Dairəsindən deputat Nüsrət Həsənov təmsil etdiyi ərazi sakinlərinin içməli su təminatı ilə bağlı işlərin görülməsinin nəzarətə götürülməsini bildirib.

19 saylı Babək qəsəbə Seçki Dairəsindən deputat İsa Məmmədov Nehrəm qəsəbəsində tikintisi aparılan 900 şagird yerlik 3 nömrəli tam orta məktəbin şagirdlərinin 1 nömrəli tam orta məktəbdə təhsil aldığını qeyd edib. Bildirilib ki, bu da bir sıra çətinliklər yaradır. Məktəbin tikintisinin qışa kimi yekunlaşdırılması istiqamətində tədbirlər görülməsini xahiş edib.

İclasda verilən təkliflər aidiyyəti qurumlara göndərilmək üçün qeydə alınıb.

İclasda Anar İbrahimov bildirib ki, deputatların fəaliyyətləri ilə bağlı Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat verilməsi, bu məlumatların sistemləşdirilməsi və arxivləşdirilməsi qarşıda duran vəzifələrdən biridir. Bu məqsədlə deputatlar tərəfindən vətəndaş qəbulunun həyata keçirilməsi, müraciət edən vətəndaşların ərizə, şikayət və təklifləri ilə bağlı görülən işlər, deputatların mediada çıxışları və dərc olunmuş məqalələri, şəhid ailələri və qazilərlə görüşlərin keçirilməsi, tələbə və gənclərlə görüşlərin keçirilməsi, sakinlərin sosial problemlərinin həlli ilə bağlı məsələlərin araşdırılması üçün aid dövlət orqanlarına deputat sorğularının verilməsi, ölkə əhəmiyyətli və beynəlxalq səviyyəli tədbirlərdə iştirakla bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbəsinə mütəmadi məlumat verilməsi xahiş olunur. Məqsədimiz deputatların fəaliyyətinin daha səmərəli təşkil olunması, bu fəaliyyətin mediada işıqlandırılması, Ali Məclisin hesabatlılığının artırılmasıdır.

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclası öz işini başa çatdırdı.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## 8 Noyabr – Zəfər Günü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Bəyanatının təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin

## Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin II hissəsinə əsasən Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

8 Noyabr – Zəfər Günü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Bəyanatı təsdiq edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 7 noyabr 2023-cü il*

## S.Ü.Nəsirovun Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri vəzifəsinə təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin

## Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 5-ci bəndini və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 54-cü maddəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Səfərəli Üzeyir oğlu Nəsirov Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri vəzifəsinə təsdiq edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 7 noyabr 2023-cü il*

## İ.S.Məmmədovun Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti sədrinin müavini təyin edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin

## Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. İbrahim Süleyman oğlu Məmmədov Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti sədrinin müavini təyin edilsin.

2. Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti sədrinin müavini İbrahim Süleyman oğlu Məmmədova həvalə edilsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 7 noyabr 2023-cü il*

## F.Q.Şıxəliyevin Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti sədrinin müavini vəzifəsindən azad edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin

## Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Faiq Qəzənfər oğlu Şıxəliyev Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti sədrinin müavini vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 7 noyabr 2023-cü il*

## 8 Noyabr – Zəfər Gününün üçüncü ildönümü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Bəyanatı

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin 44 günlük Vətən müharibəsində əldə etdiyi Zəfər Azərbaycan tarixinin şanlı səhifəsi, xalqımızın və dövlətimizin qüdrət rəmzidir.

Ümummilli Liderimiz Heydər Əliyevin uzaqgörənlik və müdrikliklə müəyyənləşdirdiyi siyasi xətt Azərbaycanın hərtərəfli inkişafını təmin etmişdir. Ötən 20 ildə cənab İlham Əliyevin rəhbərliyi ilə bu yolun uğurla davam etdirilməsi, xüsusilə ordu quruculuğu sahəsində görülən işlər Azərbaycan Silahlı Qüvvələrini dünyanın ən güclü orduları sırasına çıxarmış, döyüş qabiliyyətini dəfələrlə artırmışdır.

Məlum olduğu kimi, xalqımıza qarşı yüz illər boyu erməni vandalları tərəfindən kütləvi soyqırımlar törədilmiş, əzəli və tarixi torpaqlarımız işğal olunmuş, soydaşlarımız deportasiya və faciələrə məruz qalmış, 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətində yaşamışdır. Həmçinin ermənilər tərəfindən milli-mədəni və dini-mənəvi irsimizə qarşı terror aktı törədilmiş, tarixi abidələrimiz, ziyarətgahlarımız və məscidlərimiz dağıdılmışdır.

Azərbaycan dəfələrlə beynəlxalq hüquq normaları çərçivəsində məsələnin sülh və danışıqlar yolu ilə həllinə, işğal olunmuş torpaqlarımızın geri qaytarılmasına çalışsa da, Ermənistan bu çağırışlara məhəl qoymamış, əksinə, işğalçılıq siyasətini davam etdirərək yeni hərbi təxribatlar törətmişdir. 2020-ci il sentyabrın 27-də Ermənistan növbəti hərbi əməliyyatlara başlamış, Azərbaycan Ordusunun mövqelərinə və mülki yaşayış sahələrinə hücumlar etmişdir. Buna cavab olaraq Azərbaycan BMT Nizamnaməsinin verdiyi özünümüdafiə hüququndan istifadə edərək əks-hücum əməliyyatına başlamış, 44 gün davam edən Vətən müharibəsində 30 illik münaqişəyə son qoyulmuş, torpaqlarımız işğaldan azad edilmiş, hərb tariximizə şanlı səhifələr yazılmışdır.

Vətən müharibəsində ağır məğlubiyyətə düçar olan təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi bir daha beynəlxalq hüququn norma və prinsiplərini pozaraq Azərbaycan şəhərlərində dinc əhaliyə qarşı terror aktları həyata keçirmişdir. Lakin düşmənin hərbi cinayətləri xalqımızın mübarizə əzmini qırmamış, Azərbaycan Ordusu bütün bu məhrumiyyətlərə son qoyaraq tarixi ədaləti bərpa etmişdir.

44 günlük Vətən müharibəsində Azərbaycan təkcə döyüş meydanında deyil, həm də siyasi-diplomatik müstəvidə qələbə qazanmışdır. Hazırda Azərbaycanın qazandığı Tarixi Zəfərin regionda yaratdığı yeni reallıqlar beynəlxalq birlik tərəfindən qəbul olunur və dəstəklənir. Çünki bu prinsiplər davamlı sülhün, sabitliyin və təhlükəsizliyin təmin olunmasına xidmət edir, beynəlxalq hüquq normalarına əsaslanır.

2023-cü il sentyabrın 19-20-də Qarabağda həyata keçirilən lokal xarakterli antiterror tədbirləri erməni silahlı dəstələrinin tərk-silah edilməsi, kriminal xunta rejiminin fəaliyyətinə son qoyulması və dövlətimizin suverenliyinin onun bütün ərazisində bərpa olunması ilə nəticələndi. Hazırda işğaldan azad edilmiş ərazilərimizdə infrastruktur layihələri uğurla icra olunur, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dirçəldilməsi və inkişafı istiqamətində nəhəng layihələr həyata keçirilir. Bütün bunlarla yanaşı, Naxçıvan Muxtar Respublikasının ölkəmizin digər bölgələri ilə quru əlaqəsinin təmin olunması və Zəngəzur dəhlizinin açılması istiqamətində ardıcıl tədbirlər görülür.

Yuxarıda sadalananlar bir daha təsdiq edir ki, Zəfər Günü Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin liderlik məharətinin və Onun rəhbərliyi ilə ordumuzun malik olduğu yüksək hərbi-texniki hazırlığın, qəhrəman şəhidlərimizin və qazilərimizin rəşadətinin, ölkəmizdəki xalq-iqtidar birliyinin təntənəsidir.

Gələcək nəsillər üçün vətənpərvərlik, milli qürur və birlik nümunəsi olan Zəfər salnaməmiz daim təbliğ olunmalı, öyrənilməli və yaşadılmalıdır.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi əlamətdar tarixi gün ərəfəsində şəhidlərimizin əziz xatirəsinə dərin hörmət və ehtiramını bildirir, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevi və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanı Zəfər Günü münasibətilə təbrik edir!

## Nazirlər Kabinetinin kollektivi Zəfər parkını ziyarət edib



8 Noyabr – Zəfər Günü milli iradəmizin rəmzi kimi Azərbaycanımızın tarixinə qızıl hərflərlə yazılıb. Azərbaycanda ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər, güclü müdafiə sənayesinin qurulması, Silahlı Qüvvələrin hərbi hazırlıq potensialının artırılması ilə bağlı görülən işlər öz bəhrəsini verdi. 27 sentyabr 2020-ci il tarixdə başlanan 44 günlük Vətən müharibəsi bir daha sübut etdi ki, Azərbaycanın bütün siyasi təzyiq və təhdidlərə sinə gərməsi dövlət başçısının beynəlxalq arenada qətiyyətli siyasət yürütməsinin nəticəsidir.

Xalqımız bu gün də qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından mühüm əhəmiyyət kəsb edən bu misilsiz qələbəni yüksək səviyyədə qeyd edir. Bu böyük Qələbəni Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uzaqgörən siyasəti, müdrik rəhbərliyi, eləcə də müzəffər Ordumuzun böyük inamı sayəsində əldə etmişik.

Qürurverici haldır ki, artıq Qarabağımızın hər qarışı dirçəlir, yenidən doğulur, müasir görünüşü ilə öz övladlarını qoynuna alır, adət-ənənələrimiz, tariximiz, genetik yaddaşımız bərpa olunur. Müstəqilliyimizin, suverenliyimizin, ərazi bütövlüyümüzün rəmzi sayılan üçrəngli bayrağımız Qarabağda, Şərqi Zəngəzurda, Şuşada, Laçında, Xankəndidə, Xocalıda ucalır.

8 Noyabr – Zəfər Günü münasibətilə Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov və Nazirlər Kabinetinin kollektivi Zəfər parkını ziyarət edərək bütün dövrlərdəki şəhidlərimizin əziz xatirəsini dərin ehtiramla yad ediblər.

***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti***

## “Vətən əmanəti” mövzusunda tədbir keçirilib

Noyabrın 7-də Naxçıvan şəhər “Gənclik” Mərkəzində Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Həmkarlar İttifaqları Şurasının təşkilatçılığı ilə 8 Noyabr – Zəfər Gününə həsr olunmuş “Vətən əmanəti” adlı tədbir keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.







Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli xalqımızın Ümummilli Lideri Heydər Əliyevin layiqli davamçısı Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində əldə edilən Zəfərdən danışıb, bu tarixi günü unudulmaz edənlərə – Ali Baş Komandanımızın iradəsini gerçəkləşdirən, qəhrəmanlıq salnaməsini yazan güclü Ordumuza, şəhidlərimizə, igid qazilərimizə borclu olduğumuzu bildirib. “Şəhidlərimiz başımızın tacıdır”, – deyən Samir Seyidəhmədli qeyd edib ki, onları daim ehtiramla yad etməli, qazilərimizin cəmiyyətə inteqrasiyası və sağlamlığının bərpasına dəstək olmalıyıq.

Qeyd edilib ki, Prezident cənab İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 20 illik dövr strateji hədəflərə nail olunması baxımından çoxəsrlik milli dövlətçiliyimizin ən parlaq səhifəsi olub. Ölkə başçısı ata vəsiyyətini yerinə yetirməklə illərdir, torpaq həsrəti çəkən vətəndaşlarımızın öz doğma yurdlarına qayıtmasını reallaşdırıb.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri vəzifələrinin icraçısı, nazir müavini Elxan Nəcəfov, Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev, Şərur rayon Kürkənd tam orta məktəbinin hərbi rəhbəri, baş leytenant, II Qarabağ müharibəsinin qazisi Əli Əlisoy çıxışlarında şanlı Zəfər tarixinin xalqımızın iftixar və qürur mənbəyi olduğunu qeyd edərək bildiriblər ki, Azərbaycan xalqı öz lideri, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirib.

Çıxış edənlər Zəfər Günü münasibətilə təbriklərini çatdırıb, şəhidlərimizə rəhmət, qazilərimizə cansağlığı arzu ediblər.

Sonra tədbir bədii hissə ilə davam edib. Naxçıvan Dövlət Filarmoniyasının solistlərinin, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin dərnək üzvünün ifası, Naxçıvan şəhər körpələr evi-uşaq bağçasının balaca fidanlarının çıxışı, Naxçıvan Dövlət Filarmoniyasının rəqs qrupunun yallı kompozisiyası tədbiri rəngarəng edib.

Tədbirdə Zəfər Günü ilə bağlı videoçarxlar nümayiş olunub.

Sonda şəhid övladlarına hədiyyələr təqdim edilib.

**Güntac ŞAHMƏMMƏDLİ**

# VƏTƏN müharibəsinin tarixi ZƏFƏRİ

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli Sərəncamı ilə hər il 8 noyabr tarixi Azərbaycanda "Zəfər Günü" kimi qeyd olunur.*

Zəfər Günü Azərbaycanın ən yeni dövrünə parlaq bir tarixi gün kimi yazılmışdır. Məhz həmin gün Qarabağın tacı, qeyrət qalamız Şuşanın azad edilməsi ilə Azərbaycan Böyük Qələbəni qazanaraq illərdir, işğal altında qalan torpaqlarına qovuşmuşdur.

2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsində işğalçı Ermənistan ordusuna qarşı güclü əks-hücum əməliyyatları aparan Azərbaycan Silahlı Qüvvələri öz şücaəti ilə XXI əsrdə müasir müharibə aparmağın parlaq örnəyini ortaya qoymuşdur. 30 il ərzində münaqişənin sülh yolu ilə həllinə sadiq qalan Azərbaycan sonunda bu problemi özü həll etmiş, illərdir, nəticəsiz qalan məlum BMT qətnamələrini uğurla icra edərək ədaləti bərpa etmişdir. Dövlət başçısı ötən il Şuşada qeyd edilən Zəfər Günündə çıxışında demişdir: ***"Biz 44 gün ərzində yalnız irəli gedirdik. Şuşaya qədər bir çox şəhər və kəndlərimiz, o cümlədən Cəbrayıl, Hadrut, Füzuli, Zəngilan, Qubadlı, Suqovuşan, 300-ə yaxın kənd, Laçının və Kəlbəcərin bir hissəsi döyüş meydanında azad edilmişdir. Şuşanın azad edilməsi Ermənistan ordusunun belini qırdı. Faktiki olaraq, müharibənin ilk günlərindən Ermənistan təşviş içində idi, bəzi hallarda panikaya qapılırdı, isterikaya qapılırdı. Məhz buna görə də Ermənistan ordusunda 10 mindən çox fərari olmuşdur, onların özlərinin etirafıdır. Azərbaycan Ordusunda bir nəfər də olsun fərari olmamışdır. Bu, xalqımızın yüksək mənəvi keyfiyyətlərindən xəbər verir. Hərbçilərimiz ölümə gedirdilər, "Öldü var, döndü yoxdur!" şüarı ilə döyüşlərə gedirdilər, bir nəfər də olsun fərari olmamışdır. Bu, xalqımızın qəhrəmanlığıdır və onu göstərir ki, elə gözəl gənc nəsil yetişdi ki, onların bir çoxları Qarabağı, Zəngəzuru heç vaxt görməmişdilər, televiziyalarda, fotoşəkillərdə, valideynlərin, böyüklərin söhbətlərində bu müqəddəs torpağa yaxınlaşırdılar. Ancaq onlar gəldilər və xalqımızın tarixi missiyasını şərəflə yerinə yetirdilər".***

44 gün ərzində Azərbaycanda elə bir Prezident-xalq-ordu birliyi yarandı ki, artıq qarşımızı nə bir ölkə, nə bir bəyanat, nə də ermənilərin illərcə qurduğu qat-qat beton istehkamlar ala bildi. Vətən müharibəsi adlandırdığımız bu haqq savaşı Azərbaycan dövlətinin və xalqının mübarizə əzmini, hərbi, iqtisadi, siyasi qüdrətini bütün aydınlığı ilə ortaya qoydu. İllərdir, havadarlarının hərtərəfli dəstəyi ilə torpaqlarımızı işğalda saxlayan, beynəlxalq hüququn normalarına barmaqarası baxan ermənilər və onların "məğlubedilməz ordusu" cəmi 44 gün ərzində məhv edildi. Düşmən ordusu haqqında yaradılmış mif və nağılların, illərlə yalan təbliğatının nəticəsi idi ki, müharibədən aylarla sonra belə düşmən ölkənin əhalisi reallıqda nə baş verdiyini dərk edə bilmədilər.

Vətən müharibəsi, sadəcə, Azərbaycan Ordusunun arsenalında olan çoxsaylı müasir hərbi texnika və avadanlıqların real döyüş şəraitində uğurlu nümayişi ilə yadda qalmadı, eyni zamanda Azərbaycan əsgərinin, Azərbaycan xalqının Vətəninə, bayrağına, torpağına olan sevgisini ortaya qoydu. Məhz bu Vətən sevgisi nəticəsində düşmən ordumuzla qarşılaşmada öz silah-sursatını ataraq qaçmağa, təslim olmağa, aman diləməyə məcbur oldu. Acizliyin ən son həddi idi ki, hər gün dayanmadan irəli gedən ordumuzun qarşısında duruş gətirə bilməyən düşmən bu dəfə bütün beynəlxalq konvensiyalara zidd olaraq böyük dağıdıcı gücə malik olan raketlərlə Azərbaycanın döyüş zonasından aralıda yerləşən Gəncə, Bərdə, Mingəçevir, Tərtər, Qəbələ, Yevlax və digər dinc yaşayış məntəqələrini atəşə tutdu. Bunun nəticəsində yüzə yaxın mülki şəxs, o cümlədən körpələr, uşaqlar, qadınlar, qocalar həlak oldu. Amma Azərbaycan rəhbəri böyük səbir göstərərək bu vəziyyətdə belə müharibə qanunlarını pozmadı, düşməndən bu namərdliyin əvəzini döyüş meydanında aldı.

## Milli qürurumuzun təntənəsidir
## Zəfərimiz






Vətən müharibəsinin ən yaddaqalan tərəflərindən biri də o idi ki, Ali Baş Komandan yalnız döyüş əməliyyatlarının aparılmasına nəzarət etmirdi, eyni zamanda ölkəmizin haqq işinin dünya mediası tərəfindən düzgün, obyektiv işıqlandırılmasını təmin edirdi. Savaş müddətində Azərbaycanın haqq mübarizəsi ilə bağlı dünyanın ən məşhur media orqanlarına müsahibələr verən dövlət başçısı bununla həm də erməni lobisinin yalan təbliğatını alt-üst edirdi. Təsadüfi deyil ki, illərdir, bu lobbi hesabına yanlış təbliğatla məşğul olan bir sıra məşhur media orqanları əməkdaşlarının hadisələrə qərəzli yanaşmaları cənab İlham Əliyevin obyektiv, sərrast, dəmir məntiqə əsaslanan cavabları ilə anındaca yerində susdurulurdu. Ölkə başçısının savaş müddətində dünyanın 30-dan çox məşhur media orqanlarına ətraflı müsahibələr verməsi, hərbi-siyasi vəziyyəti yüksək peşəkarlıqla təhlil etməsi illərdir, dünya ictimai rəyində formalaşmış erməni yalanını darmadağın edirdi.

44 gün ərzində bir addım belə geriyə çəkilməyən ordumuz Azərbaycanın mədəniyyət beşiyi sayılan Şuşanı azad etməklə müharibəyə son qoydu. Dövlət başçımız Şuşanın azad olunması xəbərini xalqımıza Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etməklə, ruhu qarşısında baş əyməklə, ata vəsiyyətini yerinə yetirməklə çatdırdı. Məhz həmin günədək Azərbaycan Ordusu 5 şəhər, 4 qəsəbə və 286 kəndi işğaldan azad etmişdi. Bundan sonra, noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzaladılar. Bəyanata əsasən noyabrın 20-də Ağdam rayonu, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonu Azərbaycana təhvil verildi.

Amma, təəssüflər olsun ki, birgə imzalanmış bu bəyannamədəki bəzi şərtlər Ermənistan tərəfindən yerinə yetirilmədi. Xüsusilə Ermənistan silahlı qüvvələrinin Qarabağ bölgəsindən çıxarılmasının zəruriliyi ilə bağlı Azərbaycanın dəfələrlə həm Ermənistan tərəfinə, həm də beynəlxalq təşkilatlara etdiyi çoxsaylı müraciətlərə baxmayaraq, qarşı tərəf nəinki bu öhdəliyinə əməl etmədi, əksinə, ölkəmizə qarşı silahlı təxribatlarının intensivliyi bir qədər də artdı. Bu il sentyabrın 19-da erməni silahlı birləşmələrinin törətdikləri terror aktı nəticəsində ikisi mülki şəxs olmaqla, 6 Azərbaycan vətəndaşının həlak olması ordumuzun yenidən hərəkətə keçməsinə səbəb oldu. Məhz elə həmin gün cənab Ali Baş Komandanın əmri ilə Azərbaycan Ordusu lokal xarakterli antiterror tədbirlərinə başlayaraq qarşıda duran bütün vəzifələri cəmi bir gün ərzində yerinə yetirərək düşməni layiqincə cəzalandırdı. Ordumuz bir daha sübut etdi ki, şəhidlərimizin qanı heç vaxt yerdə qalmayacaq. Bu antiterror əməliyyatı zamanı Azərbaycan Ordusu düşmənin 90-dan çox döyüş mövqeyini ələ keçirdi. Məhz bu əməliyyatla suverenliyimizin bərpası təmin olundu. Nəhayət, Xankəndidəki xunta rəhbərləri keçirilən əməliyyat nəticəsində tutularaq Bakıya gətirildi və həbs olundu. Azərbaycan Prezidenti oktyabrın 15-i Xankəndidə, Xocalıda, Əsgəranda bayrağımızı ucaltdı.




Bu gün işğaldan azad edilmiş torpaqlarımızda böyük quruculuq işləri görülür, yeni obyektlər istifadəyə verilir, 30 illik həsrətdən sonra əhali öz doğma yurd-yuvasına qayıdır. 44 günlük müharibədə daim yanımızda olan qardaş Türkiyə bu gün də 2021-ci il iyunun 15-də imzalanmış Şuşa Bəyannaməsinin ruhuna uyğun olaraq bizimlə həmrəylik nümayiş etdirir, Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulmasında yaxından iştirak edir. Vətən müharibəsindən ötən üç il ərzində Azərbaycanın regionda yaratdığı yeni reallıqlar bir daha ölkəmizin gücünü, nüfuzunu ortaya qoyur. Bu gün artıq dünya azərbaycanlıları Zəfər Gününü böyük qürurla qeyd edir. Çünki ölkəmizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbə həm də milli qürurumuzun təntənəsidir!

**Səbuhi HƏSƏNOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## Prokurorluq əməkdaşları Zəfər parkında olublar

Zəfər Günü muxtar respublikada silsilə tədbirlərlə qeyd olunur, idarə, müəssisə və təşkilatların kollektivləri Zəfər parkını ziyarət edərək Vətən uğrunda canlarından keçən qəhrəman oğullarımızın əziz xatirəsini yad edirlər.



Zəfər Günü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, şəhər və rayon prokurorluqlarının kollektivləri də Naxçıvan şəhərindəki Zəfər parkını ziyarət ediblər.

Naxçıvan Muxtar Respublikasının prokuroru Sənan Paşayev və prokurorluq heyətinin iştirak etdiyi tədbirdə Zəfər abidəsinin önünə gül dəstələri qoyulub, Vətənimizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib.

Sonra prokurorluq əməkdaşları "Gənclik" Mərkəzində Ümummilli Lider Heydər Əliyevə həsr olunmuş "Ömrün Naxçıvan aşırımları" filminə baxıblar.

**Xəbərlər şöbəsi**

## Naxçıvanda keçirilən Zəfər Gününə həsr olunmuş kros qaçışı böyük maraqla qarşılanıb



Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyi, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə 8 Noyabr – Zəfər Gününə həsr olunmuş kros qaçışı keçirilib. Əziz Əliyev küçəsindən başlayaraq Zəfər parkınadək 5500 metrlik məsafəni əhatə edən kütləvi idman yarışına ictimaiyyət nümayəndələri, tələbələr, kursantlar, idmançılar və şəhər sakinləri olmaqla, ümumilikdə, 500-dən çox insan qatılıb.

Simvolik olaraq ilk 8 yerin sahibləri diplom, medal, fəxri fərman və hədiyyələrlə mükafatlandırılıb. Mükafatları Səlahiyyətli Nümayəndəliyin media məsələləri üzrə məsul şəxsi Günay Malikqızı, gənclər və idman naziri səlahiyyətlərini müvəqqəti icra edən nazir müavini Məcid Seyidov təqdim ediblər. Tədbirə fəxri qonaq qismində dəvət olunmuş Vətən müharibəsi iştirakçıları və şəhid övladlarına hədiyyələr təqdim olunub. Zəfər Günü münasibətilə hər kəsi təbrik edən şəhid Sahil Məmmədovun qızı Şəms atasının timsalında bütün Azərbaycan hərbçiləri ilə fəxr etdiyini deyib, səsləndirdiyi



şeir parçası ilə iştirakçılara duyğulu anlar yaşadıb.

Qeyd edək ki, oğlanlar arasında Əmrah Nağıyev, qızlarda isə Aysu Abbasova qalib olublar. Namiq Babayev, Cəlal Quliyev, Sevinc Əliyeva və Nilufər Quliyeva müvafiq ardıcıllıqla ilk üçlüyü tamamlayıblar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***



# Tapşırıq yerinə yetirildi
## Məruzə edir
# Ali Baş Komandan İLHAM ƏLİYEV!

**Ümummilli Lider Heydər ƏLİYEV:** *Mən ona özüm qədər inanıram. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək.*

*O gün Vətən müharibəsinin başlanmasından 42 gün keçirdi, hamının gözü saata dikilmişdi. Hər kəs Ali Baş Komandanın xalqa müraciətini səbirsizliklə gözləyirdi. Həmin günə kimi dövlət başçısı bir neçə dəfə xalqa müraciət edərək Cəbrayılın, Füzulinin, Qubadlının, Zəngilanın azad edildiyi müjdəsini vermişdi. Günlərdir, hamının gözü yolda, qulağı səsdə idi. Bütün xalq Şuşa müjdəsi gözləyirdi. Hamı yaxşı bilirdi ki, tarixi şəhərin azad olunacağı gün tarixi zəfərə imza atacaq xalqımız. Ali Baş Komandanın Şəhidlər xiyabanındakı müraciətinin sonunda "Şuşa, sən azadsan!" kəlməsi illərdir, həsrətlə baxan gözlərdə sevinc göz yaşına döndü. Həmin gün bir xalqın 30 illik həsrəti bitmişdi. Müzəffər Komandan ata arzusunu yerinə yetirən oğul şərəfini qazanmış, Vətənin oğlu ünvanına sahiblənmişdi. Azərbaycan tarixinin səhifələrinə Müzəffər Komandan, müzəffər Ordu, Qələbə sözləri yazılmışdı. Həmin gün, təxminən, 300 il öncə elə tarixin bu ayında ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi üçün sərəncam imzalayan rus çarı birinci Pyotrun sərəncamı geri oxunmuşdu.*



### Müasir hərb elminin prinsiplərini alt-üst edən əməliyyat

44 gün davam edən əks-hücumda tarix bir xalqın səbir kasasının necə daşdığına şahid oldu. Bütün dünya kiçik bir xalqın qəlbindəki Vətən sevgisinin necə zirvəyə qalxdığını gördü. İki oğlu müharibədə şəhid olan bir atanın Ali Baş Komandana "Müharibəni dayandırma, zəfər qazanana kimi biz də döyüşməyə hazırıq", – deyə səsləndiyini eşitdi, qardaşını Vətən uğrunda şəhid verib öz əli ilə onun məzarına torpaq atan, şəhid həyat yoldaşının tabutunu çiynində daşıyan gəlini, şəhid oğlunun məzarı başında qürurla dayanıb "Vətən sağ olsun!", "Oğlumun bəy paltarı bükülüb gəldiyi bayraqdır", – deyən Azərbaycan anasını gördü.

Həmin günlərdə dünya mətbuatı Azərbaycan əsgərinin igidliyindən, Şuşanı hansı çətin relyefdən, dumanlı dağlardan aşıb işğaldan azad etdiyindən yazdı. Müharibənin gedişini izləyən rusiyalı jurnalist belə döyüş, belə dövlət, belə Vətən sevgisi görmədiyindən, Azərbaycan əsgərinin dağ yuxarı, həlak olmuş yoldaşı çiynində, döyüşə-döyüşə, qan-tər içərisində qalxmasından yazdı, "Budur vətənpərvərlik! Budur Vətən sevgisi! Budur torpağa bağlılıq!" – deyə qeyd etdi. İtalyan nəşri "Le Monde" ermənilərin necə qorxub qaçdığından, bəzi yerlərdə üzbəüz döyüşlər getdiyindən, yəhudi jurnalist Pyotr Lyukimson Şuşanın aşağıdan yuxarıya doğru azad olunduğundan və bunun, müasir hərb elminin bütün prinsiplərinə zidd olduğundan yazdı.

Həmin gündən üç il ötür, düşmən hələ də inanmır, Şuşanın azad olub öz anasına qovuşduğuna. Şuşa isə doğma xalqının, öz yiyəsinin əllərində cənnətə dönür. Şahidlik edir tarixi anlara: Azərbaycanın, İslam, türk xalqlarının mədəniyyət paytaxtı olmasına, "Xarıbülbül" beynəlxalq musiqi festivalına, Vaqif poeziya günlərinə, əbədi qardaşlığın simvoluna çevrilən bəyanatlara imza atılmasına şahidlik edir.

### Əbədi qardaşlığın simvolu

2021-ci il iyun ayının 15-də Şuşada Azərbaycan və Türkiyə prezidentlərinin imzaladığı Şuşa Bəyannaməsi əbədi qardaşlığın simvolu oldu. Bölgədə dayanıqlı sülh, etibarlı sabitlik və təhlükəsizlik, o cümlədən çoxşaxəli əməkdaşlıq mühiti formalaşdıran Azərbaycan və Türkiyə qarşılıqlı faydalı əməkdaşlıqların dərinləşməsinə öz töhfələrini verirlər. Tarixi Şuşa Bəyannaməsi isə Qars müqaviləsinə, "Dostluq və Əməkdaşlıq haqqında" müqaviləyə, "Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım haqqında" müqaviləyə əsaslanaraq Azərbaycan-Türkiyə əzəli, əbədi dostluğuna, qardaşlığına yeni çalarlar əlavə edib. Ötən il iyunun 15-də Şuşa Bəyannaməsinin birinci ildönümü münasibətilə Şuşa şəhərində keçirilən "Azərbaycan-Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir" mövzusunda beynəlxalq konfrans bir daha Türkiyə-Azərbaycan qardaşlığının sarsılmazlığını, əbədiliyini dünyaya nümayiş etdirdi. Azərbaycan və Türkiyə bayraqlarının təkcə Şuşada yox, şəhidlərimizin məzarı başında da qoşa dalğalanması ölkələrimizin birliyinin nümayişidir. Hər keçən gün keyfiyyətcə yeni mərhələyə yüksələn iki qardaş ölkənin müttəfiqlik əlaqələri regionun geostrateji reallıqlarını tam nəzarətdə saxlayır, regionun gələcək inkişafı üçün real imkanlar yaradır. Şuşa Bəyannaməsi bölgədə uzunmüddətli sülhün təmin olunmasını şərtləndirir.

### Möhtəşəm Zəfərin şəhərinə səfərlər

2021-ci ilin ilk ayında ölkə başçısı regionlara ilk səfərini bu qədim şəhərə edərək müstəqil Azərbaycanın Şuşaya səfər edən ilk Prezidenti olmaq sevincini xalqı ilə bölüşdü. Bu səfərlərin birində Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev ***"Bu il "Xarıbülbül" festivalında Ulu Öndərin Şuşa haqqında tarixi sözlərinin bir hissəsi videoformatda təqdim edildi. Hər birimiz o anları xatırlayır. Necə böyük inamla, necə böyük sevgi ilə Heydər Əliyev deyirdi ki, biz Şuşaya qayıdacağıq, inanın ki, qayıdacağıq. O özü inanırdı, bizi də inandırırdı. Bizə də Onun inamı, xalqın iradəsi əlavə güc verdi və bu gün biz buradayıq, bu müqəddəs torpaqdayıq. Qeyd etdiyim kimi, bundan sonra bu torpaqlarda Azərbaycan xalqı əbədi yaşayacaq, bundan sonra Qarabağda Azərbaycan muğamı əbədi səslənəcəkdir"*** fikri ilə "Şuşa İli" çərçivəsində görüləcək işlərin aydın mənzərəsini görməyə imkan verdi. Həmin ildə dəfələrlə Şuşaya gələn ölkə başçısının 2022-ci ildə Mədəniyyət paytaxtımıza 7 tarixi səfəri oldu. Bir çox mədəni tədbirlərdə, açılış və təməlqoyma mərasimlərində iştirak etdi.

Bu il ərzində də bir neçə dəfə Şuşaya səfər edən ölkə başçısı Ümummilli Liderin 100 illik yubileyi ilə bağlı müraciətini Şuşadan etməsinin də böyük rəmzi mənası vardır.

Bu ilin iyulun 21-də "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunun açılış mərasimində xarici media nümayəndələri ilə görüşdə cənab İlham Əliyev deyib: ***"Siz buraya gələrkən azad olunmuş ərazilərdən keçdiniz. Siz Füzuli Hava Limanından Şuşaya elə bir yolla gəlmisiniz ki, biz onu Zəfər yolu adlandırmışıq. Bu yol nə sovet dövründə, nə də ki, işğal dövründə mövcud deyildi. Bu yol bizim qəhrəmanlarımızın cəsarəti və ruhu sayəsində açılıbdır".***

### Əziz Şuşa, biz səni dirçəldirik

Azərbaycan xalqı bir olub torpaqlarını azad etdiyi kimi, onu gülüstana çevirməyi də bacarır. Necə ki, bu gün Şuşa şəhərinin Baş planı əsasında böyük işlər görülür. Şəhərin Baş planı hazırlanarkən onun tarixi əzəmətinin qorunması əsas götürülüb. Azərbaycanın Mədəniyyət Paytaxtında həyata keçirilən bütün layihələr tarixlə müasirliyin vəhdəti üzərində qurulur. Prezident cənab İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın təkcə Qarabağın tacı, bütün Türk dünyasının mədəniyyət paytaxtı Şuşada açılışında və təməlqoyma mərasimlərində iştirak etdikləri sosial obyektlərin say tərkibinə diqqət yetirsək, həyata keçirilən bərpa-quruculuq işlərinin miqyasını təsəvvür edə bilirik və torpaq öz sahibinin əlində cənnətə dönür sözlərinin nə qədər yerinə düşdüyünü görürük. Şəhər işğaldan azad olandan sonrakı günlərdə Şuşa şəhərində 23 binadan ibarət yaşayış kompleksində aparılan tikinti işləri ilə tanışlıq, 17 binadan ibarət 2-ci yaşayış kompleksinin təməlqoyma mərasimi, Şuşa Otel-Konqres Mərkəzi Kompleksinin, Yaradıcılıq Mərkəzinin Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra açılışı kimi biri-birindən uğurlu addımlar bu ecazkar diyarın əvvəlki şöhrətinin özünə qaytarılmasına xidmət edən mühüm məqamlar sırasındandır. Görülən işlər həm də Azərbaycan xalqının nə qədər qurucu, torpağına bağlı bir xalq olduğunun, həmçinin iqtisadi və maliyyə imkanlarımızın genişliyinin təqdimatı oldu.

### Əziz Şuşa, biz qayıtdıq

Vətən müharibəsində hər kəndə, hər şəhərə – Suqovuşana, Xudafərinə, Zəngilana, Qubadlıya bayrağımız sancılanda sevincimiz sonsuz oldu. Amma Şuşada bayrağımız dalğalananda sevincimiz ürəyimizdəki həsrətlə, qubarla qarışdı, sevinc göz yaşına çevrildi. Çünki Şuşa qeyrət rəmzimiz, Pənahəli xanın qürbətdə dayanan ürəyi, başqa torpağa kök salmayıb Şuşada düşmən tapdağında solan xarıbülbülün ah-naləsi, başımızın əsarətdə qalan tacı, düşmənə əsir olan Vaqif, Natəvan sözü, Bülbülün səsi idi. Şuşa hünər, zəfər zirvəsi, illərlə könlümüzdə qubar olan dərdimiz idi. Şuşa dağların başında əsir qalan cənnətimiz, düşmən baltasına tuş gələndə tüstüsü ərşə qalxan Topxana meşəsinin harayı, İsa bulağının zümzüməsi, Cıdır düzünə həsrət qalan Qarabağ atının səssiz fəryadı idi. Şuşa yollara dikilən həsrətli baxışlarımız, dilimdilim olan ürəyimiz idi.




İllər sonra Ali Baş Komandanımız 20 illik fəaliyyətinə 30 illik müşküllərin birdəfəlik çarəsini sığdıraraq arzularımızı çin etdi. Ulu Öndərin yolunu sədaqətlə davam etdirib yetişdirdiyi gənclərlə birlikdə illər öncə alnımıza çəkilən qara ləkəni sildi. Vətən uğrunda "Qarabağ Azərbaycandır!" şüarı ilə irəli atılan oğulların işıqsız qalan gözləri illərdir, gözü yollarda qalan torpaqların gözünə nur, Vətən yolunda itən ayaqlar Qarabağa yeriməyə təpər, torpaq yolunda fəda olan əllər ana Vətənindən bərk-bərk yapışmağa qol verdi. Azad olmuş Vətən torpağında dalğalanan bayrağımız övladını itirən anaya şəhid məzarı başında mərd dayanmağa, ömür yoldaşını itirən gəlinlərə şəhid tabutunu çiynində daşımağa güc verdi.

Bu gün Azərbaycan Bayrağı bütöv, suveren Azərbaycanın başı üstündə qürurla dalğalanır, bu gün Azərbaycan xalqı üçrəngli bayrağı ilə məsud yaşayır. Bu gün hüququndan keçən əsgər öz qəhrəmanlığı ilə bütün dünyaya Vətəndən pay olmadığını, Vətən torpağının ruhdan, candan irəli olduğunu, bir qarışın belə güzəştə gedilməyəcəyini sübut etdi. Bu gün şəhid məzarları başında dayananda, onların məzar daşında yazılan tarixi görəndə gözümüz önünə işğalda inləyən yurdlar yox, dirçələn, çiçəklənən, çırağı bizi işıqlandıran, ocağı bizi isidən doğma övladlarına qapı açan Laçın, Füzuli, Zəngilan Şuşa gəlir. Qulaqlarımıza azad Vətən torpağında – Xankəndidə keçirilən Zəfər paradında addımlayan Azərbaycan əsgərinin addımının, Zəngilanda doğulan körpənin, Şuşa dağlarına yayılan "Qarabağ" şikəstəsinin, abadlaşan məscidlərdən ucalan azanın səsi gəlir.

✍ Ramiyyə ƏKBƏROVA









# Zəfər Günü münasibətilə silsilə tədbirlər keçirilib



Ölkəmizin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərimiz xalqımız tərəfindən hər zaman ehtiramla yad edilir, onların ailələrinə diqqət və qayğı göstərilir.

8 Noyabr – Zəfər Günü ərəfəsində Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin əməkdaşları vətənimizin ərazi bütövlüyü uğrunda canından keçmiş rabitəçi şəhidlərin ailələrinə baş çəkiblər. Zəfər Günü münasibətilə şəhidlərin ailə üzvlərini təbrik ediblər. Nazirlik əməkdaşları onlarla həmsöhbət olub, mənəvi dəstəklərini ifadə ediblər, gətirdikləri sovqatları təqdim ediblər.

Şəhidlərimizin ailə üzvləri onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***



Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə, cənab İlham Əliyevin prezidentlik fəaliyyətinin iyirmi illiyinə təsadüf etməsi və dövlət suverenliyimizin bərpası ilə əlamətdar olan Zəfər Gününün üçüncü ildönümü muxtar respublikamızın ali təhsil müəssisələrində də geniş şəkildə qeyd olunub. Keçirilən tədbirlərdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Naxçıvan Dövlət Universitetində Vətən müharibəsi şəhidi Orxan Kərimlinin adına auditoriyanın açılışı olub. Şəhidin ailə üzvlərinin də iştirak etdiyi tədbirdə universitetin rektoru Elbrus İsayev bunun mənəvi dəyər kəsb etdiyini diqqətə çatdırıb. Şəhidin atası oğlu haqqında xatirələrini bölüşüb.

Sonra Zəfər Günü ilə bağlı keçirilən tədbirdə universitetin rektoru Elbrus İsayev bildirib ki, 8 Noyabr – Zəfər Günü xalqımızın milli qürur günü, tarixi ədalətin



və beynəlxalq hüququn təntənəsi, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpası günü kimi zəngin tariximizin şanlı səhifəsidir.

Tədbirdə "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin sədr müavini Ruslan Zeynalov, Vətən müharibəsi şəhidi, universitetin tələbəsi olmuş Orxan Kərimlinin atası Akif Kərimov, "Naxçıvan Qaziləri" İctimai Birliyinin sədri, ehtiyatda olan kapitan Ceyhun Bayramov, şəhid Xansu Qurbanovun anası Yəmən Abbasova çıxış ediblər.

"Naxçıvan" Universitetində keçirilən tədbirdə rektor, dosent Anar Kazımov tarixi qələbəni, şərəfli günləri bizə qazandıran şəhidlərimizin əziz xatirəsini dərin ehtiramla yad edib, qazilərimizə cansağlığı arzulayıb və şəhidlərin bizim qəlbimizdə əbədi yaşayacağını deyib.

Sonra çıxış edən şəhid Raqib Hüseynovun anası Rəna Hüseynova Zəfər Gününü şəhid ailəsi olaraq böyük qürurla qeyd etdiyini bildirib. Şəhidin şərəfli ömür yolundan danışan Rəna Hüseynova şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə ölkə başçısına minnətdarlığını ifadə edib.

Tədbirə onlayn şəkildə qatılan şəhid general-mayor Polad Həşimovun anası Səmayə Həşimova və şəhid Xudayar Yusifzadənin anası Radə Qurbanova da Zəfər Gününü şəhid ailəsi olaraq böyük qürurla qeyd etdiklərini bildiriblər.

Tədbir iştirakçılarını bayram münasibətilə təbrik edən Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin şöbə müdiri Üzeyir Məmmədov möhtəşəm tarixi qələbənin bu il ölkəmizin suverenliyinin tam bərpa edilməsi ilə bayram edilməsini xüsusi vurğulayıb.

Daha sonra Vətən müharibəsi qəhrəmanları, qazi Mirkənan Kərimov və Elşən Həsənov 44 günlük Vətən müharibəsində Silahlı Qüvvələrimizin göstərdiyi rəşadətdən, əsgər və zabitlərimizin qəhrəmanlığından söz açıb, döyüş xatirələrini bölüşüb.

Naxçıvan Müəllimlər İnstitutunda təşkil olunan "Zəfər sənindir, Azərbaycan!" adlı tədbirdə rektor Azad Novruzov çıxış edərək bildirib ki, sentyabrın 27-dən başlayan, 44 gün davam edən və işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən müharibəsi



tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrilib.

Vurğulanıb ki, bu gün Heydər Əliyevin 100 illiyində, Azərbaycan Respublikası Prezidentinin 20 illik fəaliyyəti dövründə Xankəndidə üçrəngli bayrağımız dalğalanır. Bizə bu günləri yaşadan ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi altında bizə böyük qürur yaradan xalqımızın igid oğullarına – qazilərinə, şəhidlərinə borcluyuq. Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə cansağlığı arzulayırıq.

Ali təhsil ocaqlarında keçirilən tədbirlər tələbələrin vətənpərvərlik ruhunda hazırladığı musiqili, ədəbi-bədii hissə ilə davam edib.

**Xəbərlər şöbəsi**

## Dövlət Bayrağı Günü qeyd olunub



Naxçıvan Dövlət Universitetində 9 noyabr – Dövlət Bayrağı Günü qeyd olunub.

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə çıxış edən ali təhsil ocağının rektoru Elbrus İsayev bildirib ki, Prezident cənab İlham Əliyevin 2009-cu il 17 noyabr tarixli Sərəncamına əsasən hər il 9 Noyabr Azərbaycanda "Dövlət Bayrağı Günü" kimi qeyd olunur. Azərbaycan Bayrağı ilk dəfə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanda dalğalanıb. Elbrus İsayev Dövlət Bayrağının respublikamızın dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində ucaldığını, mühüm beynəlxalq tədbirlər, mötəbər mərasimlər və məclislərlə yanaşı, irimiqyaslı ictimai-siyasi toplantılarda, mədəni tədbirlərdə və idman yarışlarında qaldırılaraq milli birliyi təcəssüm etdirdiyini diqqətə çatdırıb.

Rektor bildirib ki, 44 günlük Vətən müharibəsində müzəffər Ordumuz tərəfindən işğaldan azad olunmuş şəhərlərimizdə üçrəngli bayrağımızın dalğalanması ölkəmizin və ordumuzun qüdrətini bir daha göstərir, hər bir vətəndaşı qürurlandırır.

Tədbirdə 9 Noyabr – Dövlət Bayrağı Gününə həsr olunan film nümayiş olunub, II kurs magistrant Gülcan Əlizadənin "Qələbə soraqlı bayrağım" adlı çıxışı dinlənilib.

Sonda Tarix-filologiya fakültəsinin tələbələri bayrağımıza həsr olunmuş şeirləri bədii qiraət ediblər.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

# Zəfər sevinci...





44 günlük Vətən müharibəsi Azərbaycan xalqının gücünü, xalq olaraq birlik və həmrəyliyimizi bütün dünyaya nümayiş etdirdi. 30 ilə yaxın müddətdə işğal altında qalan torpaqlarımızı sağlam ruhda böyümüş, milli dəyərlərinə bağlı qəhrəmanlar sayəsində azad etdik. Əsrlər ötsə də, bu şanlı Qələbə milli tariximizin ən yaddaqalan səhifələrində yer alacaq. Bu gün Tarixi Zəfər Günündən 3 il ötməsinə baxmayaraq, böyükdən-kiçiyə hər kəs şəhidlərimizi ziyarət edib, Zəfər abidəsinin önünə gül dəstələri qoyur. Biz də bu bayram günündə şəhərimizin sakinləri ilə həmsöhbət olub, onların təəssüratlarını öyrəndik:

***Cəlal Quliyev:*** – 8 Noyabr – Zəfər Gününə həsr olunmuş kros qaçışında III yeri tutmuşam. Bizim də öhdəmizə düşən tariximizə əbədi olaraq qəhrəman Vətən övladları tərəfindən qızıl hərflərlə yazılan bu günü qeyd etmək, onların əbədiyyət qazanmış ruhlarını yad etməkdir. Bu gün münasibətilə mən də Azərbaycan xalqını təbrik edirəm.

Digər həmsöhbətimiz isə ***Miryaqub Seyidov***dur. Vətən müharibəsi zamanı döyüşlərdə iştirak edən qazimiz Miryaqub da bizimlə hiss və düşüncələrini paylaşaraq deyir ki, 44 gün davam edən və işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrilib. Çünki həmin müharibə bizim dünyaya gücümüzü, nəyə qadir olduğumuzu göstərdi. Bu abidənin qarşısında dayanan hər kəs artıq 3 ildir ki, bu qələbənin sevinci ilə yaşayır.

***Mahir İbrahimov:*** – Zəfər Gününə həsr olunmuş bu yarışda iştirak etdim və 7-ci yerə layiq görüldüm. Vətən müharibəsində ölkəmizin qazandığı möhtəşəm zəfərin ildönümünə həsr olunan marafonun təşkilində əməyi olan hər kəsə təşəkkür edirəm. Bu bir yarış olsa da, bizim əsas məqsədimiz xalqımızın həmrəyliyini, dövlət-xalq birliyini bir daha nümayiş etdirməklə müharibə dövründəki qalib xalq ruhunu daim yaşatmaqdır. Ölkəmizə böyük zəfərlər arzu edirəm.



***Ülviyyə Cəfərova:*** – Naxçıvan şəhərindəki 14 nömrəli tam orta məktəbdə ibtidai sinif müəllimiyəm. 3 il öncə, noyabrın 8-də cənab Prezidentin və rəşadətli Ordumuzun sayəsində 30 illik həsrətimiz sona çatdı. Biz də qalib xalqın nümayəndəsi kimi bu möhtəşəm qələbəni qeyd edirik. Bu gün rəhbərlik etdiyim 1"b" sinfinin şagirdləri ilə Zəfər parkına layihə reallaşdırmaq məqsədilə gəlmişik. Ölkəmizə daha böyük qələbələr arzu edirəm. Bir müəllim kimi gələcəyimiz olan uşaqları bu barədə məlumatlandırmaq və onların vətənpərvər ruhda formalaşmasını təmin etmək hər bir müəllimin vətəndaşlıq borcuna çevrilib. Bu Qələbədə canından keçən şəhidlərimizə rəhmət, qazilərimizə sağlam ömür yolu arzu edirik.

**✍ Bülbül QULİYEVA**
**✍ Aysel YUSİFZADƏ**
**✍ Süreyya QƏDİMƏLİYEVA**

### *İtmişdir*

Şərur rayonunun Danyeri kənd sakini Siyazov Zakir Oruc oğlunun adına olan JN-513$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Culfa rayonunun Qızılca kənd sakini Novruzova Zeynəb Vəli qızının adına olan JN-110$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 653